# Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın tələbləri rədd edildi



**Fevralın 22-də Beynəlxalq Ədalət Məhkəməsi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Azərbaycanın Ermənistana qarşı) qərarını açıqlayıb.**

Qərara əsasən, Ermənistanın bəzi tələbləri rədd edilib. Belə ki, Ermənistanın tərəflərin mübahisəsini gərginləşdirməkdən çəkinmək barədə hələ də öhdəlik daşıdığı məhkəmə tərəfindən bir daha təsdiq olundu. Eyni zamanda Ermənistanın Azərbaycanın etirazların təşkili və dəstəkləməsini dayandırması və Qarabağa təbii qaz və digər kommunal xidmətlərin verilməsini dərhal bərpa etməsi iddiaları ilə bağlı tələbləri rədd edilib.

Azərbaycan hər zaman beynəlxalq hüquq çərçivəsində öz haqlarını tələb edib. Müharibədə uduzan Ermənistan isə fürsət düşdükcə beynəlxalq instansiyalara, müəyyən dairələrə müraciət edərək, öz yalanları, riyakarlıqları ilə nəsə qazanmağa, əldə etməyə çalışıb. Bu ölkə hər yola əl ataraq sülh prosesini ləngitmək üçün səy göstərib. Ölkəmiz isə beynəlxalq səviyyədə arqumentlərlə, hüquq və normalara uyğun olaraq öz haqlarını daim tələb edib, hüquqlarını qoruyub, ədaləti bərpa edib.

# Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın tələbləri rədd edildi

*Əvvəli 1-ci səh.*

## Azərbaycanın uğuru

Milli Məclisin deputatı Tahir Kərimli qəzetimizə açıqlamasında deyib ki, Beynəlxalq Ədalət Məhkəməsinin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı qərarları alqışa layiqdir. Ermənistanın bir sıra iddialarının rədd edildiyini xatırladan deputat bildirib ki, onlar əsas 3 məsələyə baxılması üçün məhkəməyə müraciət etmişdilər.

O qeyd edib ki, həmişəki kimi yalan məlumatlar əsasında iddialar qaldıran Ermənistanın tələbləri beynəlxalq müstəvidə rədd edilib: "Məhkəmə Ermənistanın Laçın yolunda ekofəalların, vətəndaş cəmiyyəti nümayəndələrinin keçirdiyi dinc aksiyanın saxta və iştirakçıların guya Azərbaycan hökuməti tərəfindən öyrədilmiş şəxslər olması, eyni zamanda aksiyanın hökumət tərəfindən təşkil olunması fərziyyələri ilə bağlı vəsatətini ləğv edib. Həmçinin Ermənistanın Azərbaycan tərəfindən guya Qarabağda yaşayan ermənilərin qaz və elektrik enerjisi ilə təchizatının kəsildiyi, qəsdən verilməməsi ilə bağlı iddiaları da rədd edilib".





Tahir Kərimli qeyd edib ki, məhkəmənin Ermənistan tərəfindən minaların yerləşdirilməsinin müvəqqəti tədbirlərin tətbiq dairəsinə uyğun olmadığı barədə əvvəlki qərara yenidən baxmaması mahiyyətcə qərar deyil. Burada Azərbaycan Ermənistanın cavabdehliyi məsələsini ortaya qoyur.

Deputat məhkəmənin Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdiyini qeyd etdiyini də xatırladıb.

## Ölkəmiz hüquqi müstəvidə mübarizəsini davam etdirməlidir

Milli Məclisin deputatı Asim Mollazadə də qeyd edib ki, Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın irəli sürdüyü iddiaları rədd edib. Deputat vurğulayıb ki, Azərbaycanın hüquqi müstəvidə öz mübarizəsini davam etdirməsi olduqca vacibdir: "Ermənistanın törətdiyi cinayətlərlə bağlı hüquqi müstəvidə hər bir istiqamətdə iddialarımızı peşəkar səviyyədə irəli sürməliyik. Bütün mümkün olan platformalarda iddialar qaldıraraq Ermənistanın cinayətkar və beynəlxalq hüquqa zidd əməllərinə hüquqi qiymət almalıyıq. Azərbaycan bu istiqamətdə öz səylərini daha da gücləndirməlidir".

Asim Mollazadə onu da qeyd edib ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu günlərdə Xocalı soyqırımını törədən cinayətkarlarla bağlı da məsələ qaldırmalı, beynəlxalq orqanlar, həmçinin İnterpol vasitəsilə onların həbsinə nail olmalıdır: "Onların sərbəst hərəkətlərinin qarşısı alınmalıdır. Hər bir imkandan istifadə edərək cinayətkarları cəzalandırmağa cəhd etməliyik, çünki cinayətkar cəzalandırılmasa, öz əməllərini təkrarlayacaqdır".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2023.-24 fevral.- S.1; 3.